**UOT 94(479.24)**

**ƏZİZAĞA QƏNİ-ZADƏ**
*SQ Hərbi Akademiyasının dissertantı*
**Yupiter57@mail.ru**

# AZƏRBAYCANIN DÖYÜNƏN ÜRƏYİ ŞUŞA ŞƏHƏRİNİN TARİXİNƏ DAİR

*Məqalədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın göz bəbəyi, tarixi-mədəni, ictimai-siyasi həyatın mühüm mərkəzlərindən olan Şuşa şəhərinin tarixi, Şuşa sözünün etimoloji mənası, Şuşa şəhər-qalasının inşa olunmasının tarixi səbəbləri, şəhərin inkişaf mərhələləri, həmçinin ermənilərin Şuşaya köçürülməsi tarixi mötəbər mənbələr əsasında araşdırılmışdır. Məqalədə Şuşa şəhərinin ən qədim zamanlardan Ermənistan silahlı birləşmələri tərəfindən işğalınadək olan bir dövrü işıqlandırılmışdır.*

*Açar sözlər*: Qarabağ, ilk insan məskəni, Şuşa qalası, Şuşa-Pənahabad, köçürmə.

***Giriş***. Əsrlər boyu Azərbaycanın, eləcə də bütün Cənubi Qafqazın iqtisadi, siyasi və mədəni həyatında mühüm rolu olmuş, ən qədim insan məskənlərdən biri olan Qarabağ zəngin tarixə malikdir. Dəfələrlə yadellilərin aramsız hücumlarına qarşı mətanətlə dayanmış qədim Qarabağ nəinki öz varlığını qoruyub saxlamağı bacarmış, həmçinin xalqımızın çoxəsrlik tarixini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini özündə əks etdirən zəngin maddi-mədəniyyət abidələri yaşatmışdır.

XVIII əsrin ortalarında Azərbaycan ərazisində yaranmış xanlıqlardan ərazicə ən böyüyü Qarabağ xanlığı idi. Belə ki, xanlıq cənubdan Araz çayı, şimaldan Kür çayı sərhəddində Sınıq körpü, şərqdən Kür çayı, qərbdən isə Ermənistanla həmsərhəd olan Qarabağ dağlarını əhatə edirdi [1, s.25]. Xanlığın paytaxtı Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən olan Şuşa şəhəri idi.

Qarabağın döyünən qəlbi, Azərbaycan musiqisinin beşiyi Şuşa şəhərinin əsasının qoyulması Qarabağ xanlığının banisi Pənahəli xan Sarıcalı-Cavanşirin (1748-1763) adı ilə bağlıdır. Nadir şah Əfşarın ölümündən sonra 1747- ci ildə özünü xan elan edən Pənahəli bəy Qarabağ xanlığını düşmən hücumundan qorumaq məqsədi ilə qala inşa etmək qərarına gəlir. 1748-ci ildə Bayat və 1751/52-ci ildə salınmış Şahbulaq qalalarının etibarlı olmadığını görən Pənahəli xan «dağların içində, möhkəm və keçilməz yerdə … əbədi və sarsılmaz qala»nın bünövrəsini qoyur. Xanlığın mərkəzi hələ Şahbulaq qalasında olarkən dəniz səviyyəsindən 1300-1600 m hündürlükdə yerləşən əlçatmaz dağ yaylasında yeni şəhər-qalanın tikinti işlərinə başlanılır. Əhalinin təhlükəsizliyi üçün zəruri işlər görüldükdən sonra 1756/57-ci ildə Pənahəli xan Qarabağ xanlığının paytaxtını Şahbulaq qalasından yeni salınmış şəhər-qalaya köçürdür [5]. Bu şəhər ilk dövrlərdə öz banisinin adı ilə Pənahabad, onun ölümündən sonra isə Şuşa adlandırıldı.

Şəhər üç tərəfdən sıldırım qayalarla, dördüncü tərəfdən isə möhkəm qala divarları ilə əhatə olunmuş, uzun müddət alınmaz qala kimi şöhrət qazanmışdı. Şuşa şəhərinin müdafiə qurğularından bəhs edən müəlliflərdən biri yazırdı: «Ağa Məhəmməd xan Qacarın dövründə Şuşa kiçik gözəl şəhər idi. Möhkəm hasarının hündurlüyü şəhərin bütün tərəflərində bərabərdi və hasarın elə yerləri var idi ki, oradan hücum edənlərin başına daş, qaynar su və ya ərimiş qurğuşun tökmək olurdu» [3].

Şuşanın ən yüksək zirvəsi 2725 metr olan Böyük Kirs dağıdır. Şəhərin yerəşdiyi ərazi geoloji dövr olaraq Yura və Təbaşir dövrü çöküntüləri ilə zəngindir [9]. Şəhərin kənarında dərin Daşaltı dərəsinin baxan Cıdır düzü yerləşir. Ondan bir qədər aşağıda Qırx pilləkan deyilən dik pilləli yol Daşaltı çayına aparır [2].

Şəhər şiş qayaların əhatəsində yerləşdiyinə görə əvvəlcə onu "Şişə", sonra "Şuşa" adlandırıblar. Digər bir versiyaya görə, şəhərin adı "şüşə" sözündən əmələ gəlib. Şuşa bulaqlarının suyu elə duru və şəffaf olub ki, yerli sakinlər onu şüşə ilə müqayisə ediblər [7]. Xalq arasında Şuşanı sadəcə qala da adlandırmışlar [1, s.72].

Şuşanın bir şəhər kimi formalaşması 3 əsas mərhələdən keçmişdir. Pənahəli xanın hakimiyyət dövrünü (1748-1763) əhatə edən birinci mərhələdə Şuşanın ilk böyük məhəlləsi, sonralar Aşağı məhəllə adlandırılan Təbrizli məhəlləsi salınmışdır. Əhalisinin əksəriyyətini vaxtilə Təbriz və Ərdəbildən Bayat qalasına köçürülmüş sənətkarlar təşkil edən bu məhəllədə aşağıdakı kiçik məhəllələr –

Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Merdinli, Hacı Yusifli, Qazançalı və Çöl qala məhəllələri yerləşirdi [5].

Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi İbrahimxəlil xanın hakimiyyəti dövrünü (1763-1806) əhatə edir. Pənahəli xanın ölümündən sonra taxta çıxan öz dövrünün böyük dövlət xadimlərindən biri sayılan İbrahimxəlil xanın (1763-1806) hakimiyyəti illərində Qarabağ xanlığı qüdrətinin çiçəklənmə dövrünü yaşayır. Mir Mehdi Xəzaninin yazdığına görə İbrahim Xəlil xanın xanlığa rəhbərliyi dövründə Şuşa, Yaxın Şərqin ən məşhur şəhərlərində birinə çevrilmişdi [1, s.72]. Bu dövrdə Şuşanın 8 kiçik məhəllədən (Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam qabağı, Təzə) ibarət olan ikinci böyük məhəlləsi – Yuxarı məhəllə formalaşmışdır [5].

Qeyd edək ki, şəhər ümumilkdə əvvəlcə 17 məhəlləyə bölünüb: Böyük Qurdlar, Kiçik Qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamamqabağı, Dəmirçilər Quyuluq, Xocamircanlı, Mamayı, Saatlı, Köçərli, Mərdinli, Çölqala, Hacı Yusifli, Çuxur məhəllə və Ağadədəli. Şəhərdəki bütün məhəllələrin adları bu şəhəri yaradan, onun aborigen əhalisi olan Azərbaycan türklərinə məxsus idi. Hər məhəllənin isə öz hamamı, məscidi və bulağı olmuşdu [8, s.8-9].

Şuşa şəhərinin formalaşmasının üçüncü mərhələsi Qarabağ xanlığının 1806-cı ildə Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonra başlamış və daha uzun müddət davam etmişdir [5].

XIX əsrdə şəhərin qərb hissəsindəki dağlıq ərazidə daha 12 məhəllə salınıb və bununla da şəhərin siması tam formalaşır.

Şəhərin xarici aləmlə əlaqəsi Gəncə, Ağoğlan və İrəvan qapıları vasitəsilə həyata keçirilirdi [8, s.8-9].

Əsası Azərbaycan türkləri tərəfindən qoyulmuş və uzun müddət əhalisinin mütləq əksəriyyətini Azərbaycan türkləri təşkil edən Şuşa şəhəri, XIX əsrin əvvəllərində baş vermiş Rusiya işğalından sonra ciddi demoqrafik dəyişikliklərlə üzləşir. Azərbaycanın digər yaşayış məntəqələri kimi, Şuşaya da ermənilərin köçürülməsinə başlanılır.

XIX əsrin əvvəllərindən başlayaraq Qarabağın dağlıq hissəsində aparılmış tarixi, arxeoloji, etnoqrafik və toponimik tədqiqatlar sübut edir ki, orada yaşamış ermənilər mənşə etibarı ilə 3 qola ayrılır. Onlardan birincisi farsdilli ermənilərdir.

Qeyd etmək yerinə düşər ki, XIX əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində cəmi 2 farsdilli erməni kəndi qeydə alınmışdısa, XIX əsrin 30-cu illərində belə kəndlərin sayı 20-ni keçmişdi [15, s.48]. Farsdilli ermənilərin Qarabağa köçürülməsi prosesi isə 1828-ci ildən sonra Rus-Qacar müharibəsinin qurtarması ilə bağlanan Türkmənçay müqaviləsinin 25-ci bəndinə əsasən başlanmışdı.

Tədqiqatlar göstərir ki, 1826-1828-cu illərdə ruslar tərəfindən Cənubi Qafqaza- xüsusilə də Azərbaycan torpaqlarına 40 000 nəfərdən çox erməni köçürülmüşdür. Bu ermənilər, əsasən, Qarabağın dağlıq hissəsində və Göycə gölü ətrafında, həmçinin Şirvanda yerləşdirilmişdir. N. N. Şavrov qeyd edir ki, 1828-ci ilin təkcə üç ayı ərzində Arazdan 8249 erməni ailəsi keçirilərək Qarabağda və Şirvanda yerləşdirilmişdir [15, s.27]. Onlar yerli əhalinin əlindən 200 min desyatin, yəni 2 milyon manatlıq torpaq sahəsini alaraq, V.L.Veliçkonun təbirincə desək «yerli əhalinin şirəsini sormağa başladılar» [14].

Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin bir qismini isə, Osmanlı imperiyasından köçürülən ermənilər təşkil edirdi. Təxminən 90 000 yaxın erməni, rus-türk müharibəsi bitdikdən sonra Ədirnə sülh müqaviləsinə əsasən, Azərbayan trpaqlarına köçürümüşdür [13].

1832-ci ildə Qarabağ əhalisinin 91 faizini azərbaycanlılar, 8,4 faizini isə ermənilər təşkil edirdi. Köçürülmə siyasəti nəticəsində azərbaycanlıların sayı azalaraq 64,4 faizə, ermənilərin sayı isə artaraq 34,8 faizə çatmışdır [8, s.10].

Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə Şuşanın fəlakətli günləri də başlandı. 1923-cü ildə DQMV-nin yaradılması və Xankəndinin onun mərkəzi seçilməsi ilə Şuşa Qarabağın inzibati mərkəzi olmaq funksiyasından məhrum edildi. Bununla da vilayət rəhbərliyinin ögey münasibəti nəticəsində Şuşa şəhəri sürətlə tənəzzül etməyə başladı. Azərbaycan xalqının tarixi-memarlıq abidələrinin bir çoxu uçurdulub dağıdıldı. Əhalinin sayı təxminən, 50 il ərzində 3 dəfədən də çox azaldı. 1917-ci ildə Şuşada 43869 nəfər əhali yaşadığı halda, 1970-ci ildə onların sayı azalıb 13664 nəfərə enmişdi [5].

Şuşanın yenidən dirçəlməsi yalnız 1969-cu ildə Ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gətirilməsindən sonra mümkün oldu. 1977-ci ildə Azərbaycan SSR Nazirlər Soveti «Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında» qərar qəbul etdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Bütün bu tədbirlər nəticəsində şəhərdə əhalinin sayı artaraq 1989-cu ildə 20579 nəfərə çatdı [13].

Ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğratmışdı. Ulu öndərin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, Azərbaycanlıların milli ruhu güclənirdi. Ölkənin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular [11].

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında və ilk növbədə, Ermənistan SSR ərazisində anti-Azərbaycan, antitürk təbliğatı daha da güclənməyə başladı. Bu proses M.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra daha geniş miqyas aldı. 1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Bunun ardınca noyabrın 18-də A.Aqanbekyanın Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı [6; 12].

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir [10].

Müzəffər Ali Baş Komandan İlham Əliyevin və onun qüdrətli ordusunun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa işğaldan azad olunan gün - noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində verdiyi bu xoş xəbər Azərbaycanı ayaq üstə qaldırdı [4].

Tez bir zamanda Şuşaya, onun tarixi-mədəni irsinə vurulmuş zərərin inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır [4].

Xalqımız üçün son dərəcə müstəsna mənəvi dəyərə malik olması Şuşa şəhərinə xüsusi qayğı və həssaslıqla yanaşılmasını,burada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi onun daim inkişafına şərait yaradacaqdır.

***Nəticə***. Beləliklə, Şuşa şəhərinin işğalı ilə Ermənistan hərbi birləşmələri bütünlüklə Qarabağın işğal edilməsini təmin etdi. Erməni mətbuatının məlumatına görə, Şuşaya hücumda 100-ə qədər zirehli maşın, 72 tank, 11 min nəfər canlı qüvvə iştirak etmişdi. Şuşaya hücumda MDB-nin 366-cı alayının 180 hərbi mütəxəssisi 90 ağır hərbi texnikası ilə Şuşanın işğalında böyük fəallıq göstərmişdir. Erməni silahlı birləşmələri ilə birgə xaricdən gətirilmiş muzdlular da döyüşürdülər. Nəticədə, Şuşa özünümüdafiə dəstəsinin qəhrəmancasına döyüşməsinə və düşmənə layiqli müqavimət göstərməsinə baxmayaraq, təpədən dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri 1992-ci il mayın 7-dən 8-nə keçən gecə 24 min nəfər əhalisi olan, 289 kvadrat kilometrlik əraziyə malik 1 şəhər və 30 kənddən ibarət Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğurunda döyüşlərdə 300-dən artıq həmyerlimiz şəhid olmuşdur ki, onların da 196 nəfəri əslən şuşalı idi. Döyüş əməliyyatlarında 150 nəfərədək insan əlil olmuş, 165 nəfər yaralanmış, 58 nəfər itkin düşmüş, 20 min nəfə-

rədək sakin isə öz evlərindən didərgin düşmüşdü. Ermənilər tərəfindən əsir götürülmüş və Şuşa türməsində saxlanılan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilmişdi.

## ƏDƏBİYYAT

1. Axundov N. Qarabağ səlnamələri. Bakı, Yazıçı, 1989, 232s.
2. Cahandarov B. Şuşanın ermənilər tərəfindən işğalından 25 il keçir 8 May. - https://web.archive.org/web/20210206211542/https://1news.az/az/news/u-an-n-erm-nil-r-t-r-find-n-i-al-ndan-25-il-ke-ir [Müraciət tarixi: 18.02.2022].
3. Əhmədov E. 29 ildən sonra Şuşada, evimizdə! - Şuşalı alimin təəssüratları. - https://www.musavat.com/news/29-ilden-sonra-susada-evimizde-susali-alimin-teessuratlari_801805.html [Müraciət tarixi: 20.02.2022].
4. Əziz Şuşa, sən azadsan! - Bu 8 May Şuşadayıq 08.05.2021 ~ 16.11.2021) https://www.trt.net.tr/azerbaycan/az-rbaycan/2021/05/08/ziz-susa-s-n-azadsan-bu-8-may-susadayiq-1636320 [Müraciət tarixi: 18.02.2022].
5. Şuşanın tarixi. - http://tarixinstitutu.azpage99shusha [Müraciət tarixi: 22.02.2022].
6. Dağlıq Qarabağ münaqişəsi,Şuşa 28 iyun, 2015. - http://cls.az/front/1099/az/more/text/17491 [Müraciət tarixi: 18.02.2022].
7. Nağısoylu Möhsün, Kərimov Raqub, Rəhimov Mütəllim. Şuşa Azərbaycan mətbuatında (1875-1920). Bakı, Elmin inkişafı fondu, 2017, 199 s.
8. Şuşa Azərbaycan ədəbi salnaməsində 30 aprel 2021. - https://kayzen.az/blog/politologiya/26691/şuşa-azərbaycan-ədəbi-salnaməsində.html [Müraciət tarixi: 18.02.2022].
9. Şuşa Azərbaycanın Mədəniyyət Paytaxtı: tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova, L.Qafarova; red. və buraxılışa məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, Azərbaycan Milli Kitabxanası, 2021, 49 s.
10. Şuşa rayonunun ərazisi və təbii sərvətləri, tarixi və memarlıq abidələri. - https://web.archive.org/web/20190517115027/http://shusha.az/susanin-tarixi-və-memarliq-abidələri/ [Müraciət tarixi: 18.02.2022].
11. Şuşa şəhərinin işğalı. - https://web.archive.org/web/20190517122126/ http://shusha.az/susa-səhərinin-isgali [Müraciət tarixi: 22.02.2022].
12. Vaqifli A, Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi / Respublika qəzeti, 30 aprel 2014-cü il, № 88, S.3.
13. Vaqifli A, Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi / Respublika qəzeti, 1may 2014-cü il, №89, s.4.
14. Vaqifli A, Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi / Respublika qəzeti, 2 may 2014-cü il, № 90, s.6.
15. Шавров Николай Николаевич, Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам Баку, Элм, 1990, 156с.

**АЗИЗАГА ГАНИ-ЗАДЕ**
*Диссертант Военной академии ВС Азербайджана*

## ОБ ИСТОРИИ ГОРОДА ШУША, БЬЮЩЕГОСЯ СЕРДЦА АЗЕРБАЙДЖАНА

В статье на основе авторитетных источников исследованы очерки Карабаха, являющегося неотъемлемой частью Азербайджана, история города Шуша, одного из важных центров историко-культурной и общественно-политической жизни, этимологическое значение слова Шуша, исторические причины строительства города-крепости Шуша, этапы развития города,

а также история переселения армян в Шушу. Статья освещает историю города Шуша с древнейших времен до оккупации его армянскими вооруженными формированиями.

*Ключевые слова*: Карабах, поселение первого человека, шушинская крепость, Шуша - Панахабад, переселение.

**AZIZAGA GANI-ZADE**
*Dissertation student of the Military Academy of the Armed Forces of Azerbaijan*

## ABOUT THE HISTORY OF THE CITY OF SHUSHA, THE BEATING HEART OF AZERBAIJAN

Based on authoritative sources, the article examines the essays of Karabakh, which is an integral part of Azerbaijan, the history of the city of Shusha, one of the important centers of historical, cultural and socio-political life, the etymological meaning of the word Shusha, the historical reasons for the construction of the fortress city of Shusha, the stages of development of the city, and See also the history of the resettlement of Armenians in Shusha. The article covers the history of the city of Shusha from ancient times to its occupation by Armenian armed forces.

*Keywords*: Karabakh, settlement of the first man, Shusha fortress, Shusha-Panahabad, resettlement.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 fevral 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Vahid İsmayılov, t.e.d. Qabil Əliyev.*